# Azərbaycan iqtisadi müstəqilliyini təmin edən ölkədir

**2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda vurğulandığı kimi, Azərbaycanın hədəfi inkişaf etmiş ölkələrlə eyni sırada addımlamaq, qeyri-neft sektorunun hərtərəfli inkişafına nail olmaqdır**



**Mövcud iqtisadi potensialın gücləndirilməsi, infrastruktur və investisiya layihələrinin müxtəlif sahələri əhatə etməsi, əhalinin müxtəlif təbəqələri arasında fərqlərin azaldılması, qeyri-neft sektorunun inkişafı ilə bağlı hədəflərin reallaşması istiqamətində son 12 ildə görülən işlər, əldə olunan uğurlu nəticələr Azərbaycanın dünyaya özünün inkişaf modelini təqdim etməsinə əsas verir. Qeyri-neft sənayesinin sürətlə artması, Azərbaycanda sənayeləşmə prosesinin davam etməsi, iqtisadi zonaların yaradılması bölgələrin inkişafını daha da sürətləndirir.**

Son illərdə 60-a yaxın Dövlət Proqramının həyata keçirilməsi, planlı iqtisadiyyatı əvəz edən bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən müasir inkişaf mexanizminin, sosial infrastrukturun təkmilləşdirilməsi ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar açır.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda qeyd olunduğu kimi 2013-2020-ci illəri əhatə edəcək mərhələdə Azərbaycanın hədəfi inkişaf etmiş ölkələrlə eyni sırada addımlamaq, qeyri-neft sektorunun hərtərəfli inkişafına nail olmaqdır.

Dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan iqtisadiyyatının inkişaf modeli barədə pozitiv açıqlamalardan, xarici mətbuat səhifələrində yer alan təhlil və araşdırmalardan da aydın olur ki, ölkəmiz iqtisadi böhran dövründə də siyasi, iqtisadi sabitliyini qorumaq iqtidarındadır. Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasına daxil olduğundan göstərilən məqsədə çatmaq üçün bazar iqtisadiyyatı şəraitində sağlam rəqabəti təmin edən düşünülmüş dövlət tənzimlənməsi, enerjidən səmərəli istifadə və yüksək əlavə dəyər yaradan ixracyönümlü iqtisadiyyata transformasiya və sosial-iqtisadi sahələrin inkişafına kompleks yanaşma ölkəmizdə də əsas prinsiplər kimi diqqət mərkəzində saxlanılır. Təcrübə göstərir ki, belə bir sistem yalnız sahibkar təşəbbüsünə və sərbəst rəqabətə əsaslanan bazar münasibətləri şəraitində mümkündür. Bu səbəbdəndir ki, xarici investorların maraq göstərdiyi ölkəmizdə dünya təcrübəsindən istifadəyə diqqət artırılır. İnvestisiya cəlbediciliyinə görə də fərqlənən Azərbaycana istənilən həcmdə xarici maliyyə resursları yönəltmək üçün heç bir problem yoxdur. “Azərbaycanda ictimai-siyasi sabitlik qorunur, təmin edilir” söyləyən Prezident İlham Əliyevin siyasətini dəstəkləyən Azərbaycan xalqı ölkəmizin iqtisadi qüdrətinin reallıqlarını gündəlik həyatında hiss edir. Son illərdə ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. Statistik rəqəmlərin müqayisəli şəkildə təhlili də arxada qalan illərdə uğurların inkişaf səviyyəsini təsdiqləyir. 2004-cü ildə 1,8 milyard dollar olan valyuta ehtiyatlarımız kimi kredit reytinqlərimiz də artır. Ölkə vətəndaşlarının məşğulluq səviyyəsinin yüksəlməsinə göstərilən diqqətin nəticəsidir ki, son illərdə 1 milyon 500 mindən artıq iş yeri yaradılmışdır. Sahibkarlığın inkişafı, özəl bölməyə göstərilən dövlət dəstəyi sayəsində işsizliyin 5 faizə düşməsi, yoxsulluğun da eyni həddə saxlanılması aparılan iqtisadi siyasətin uğurudur. Dünyanın aparıcı kredit agentliklərinin Azərbaycanın reytinqlərini artırması, Davos Dünya İqtisadi Forumunun ölkəmizi iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə 40-cı yerə layiq görməsi, inflyasiyanın da çox aşağı səviyyədə olması aparılan siyasətin uğurlu nəticələrini ehtiva edir. Neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq ÜDM 1,1 qeyri-neft sənayesi isə 8,4 dəfə artmışdır. Bu isə ölkədə aparılan sənayeləşmə siyasətinin bəhrəsi kimi diqqəti cəlb edir.

Ötən ilin yaddaqalan hadisələrindən olan enerji sektorundakı yeniliklər də iqtisadi uğurların məntiqi nəticələrindəndir. Belə ki, “Cənub” qaz dəhlizinin Məşvərət Şurasının Bakıda keçirilən iclasında Azərbaycanın bu layihənin reallaşmasındakı rolu birmənalı olaraq yüksək dəyərləndirildi.

Mütəxəssis rəyinə görə, “Cənub” qaz dəhlizi Avropa üçün enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan üçün isə bu dəhlizin reallaşması əlavə siyasi, maliyyə, iqtisadi imkanlar yaradacaqdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, “Şahdəniz”, Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP kimi dörd layihədən ibarət olan “Cənub” qaz dəhlizi ölkəmizə əlavə mənfəət gətirməklə dayanıqlı inkişafımızı təmin edəcək. Eyni sözləri Azərbaycanın iştirakı və maliyyə dəstəyi ilə inşa olunan nəqliyyat infrastrukturu barədə də söyləmək olar. “Keçən il Azərbaycan özünü dünyaya çox güclü tranzit ölkə kimi təqdim edə bilmişdir” söyləməkdə bu sahədə diqqət çəkən uğurların qazanıldığını bildirən dövlətimizin başçısının vurğuladığı kimi, artıq Şərqdən Qərbə, Şimaldan Cənuba gedən yollar Azərbaycandan keçir. İqtisadi qüdrəti artan Azərbaycan artıq başqa ölkələrə investisiya yatıran respublika kimi diqqəti cəlb edir. İndi Orta Asiyadan, Çindən, Cənubi Koreyadan yüklər Avropaya Azərbaycan vasitəsilə çatdırılır. Eyni zamanda tarixi “İpək Yolu”nun bərpası istiqamətində də önəmli işlər görülür. Əvvəlki illərdə Türkiyədən Orta Asiyaya Gürcüstan və Rusiya ərazilərindən keçən yüklər indi Azərbaycan ərazisindən, Xəzər dənizi üzərindən gedir.

Ölkəmizin gələcəyini təmin edəcək sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdəndir. Son 12 ildə ölkədə 70 mindən artıq özəl müəssisə yaradılmış, sosial məsuliyyət olan əhalinin işlə təminatı istiqamətində önəmli islahatlar aparılmışdır. 12 ildə sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kreditin verilməsi iş adamlarına dövlət dəstəyinin nümunəsidir. Ötən ilin sonlarında özəl sektorun inkişafının daha da sürətləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər iş adamlarının sərbəst fəaliyyəti, şəffaflığın təminatı üçün əlverişli, münbit şərait yaratmışdır. Belə ki, sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, dövlət rüsumunun məbləği paytaxtda 2, regionlarda isə 4 dəfə azaldılmışdır. Lisenziyaların “ASAN xidmət” mərkəzlərində verilməsi ilə iş adamlarını narahat edən süründürməçilik halları aradan qaldırılmışdır. Özəl sektora maliyyə dəstəyinin gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5.243 iş adamına 248,5 milyon manat güzəştli kreditlər verilmiş, nəticədə 12.600 yeni iş yerinin açılması üçün imkan yaranmışdır. Sahibkarların illərdən bəri üzləşdikləri girov probleminin həlli üçün 32 bank olmayan kredit təşkilatının xidmətlərindən istifadə olunur. Başqa sözlə deyilsə, Azərbaycan dünya miqyasında seçilmiş, müstəqil siyasət aparan, iqtisadi müstəqilliyini təmin edən ölkədir. Tələb budur ki, daxili bazarımız, yerli istehsal qorunsun, inhisarçılıq hallarına qarşı mübarizə gücləndirilsin, rəqabət qabiliyyətli məhsulların istehsalı artırılsın. Qiymətlərin tənzimlənməsi, idxala mane olan süni maneələrin aradan qaldırılması istiqamətində görülən tədbirlər sayəsində inhisarçılıq, korrupsiya halları aradan qaldırılır. Xarici investisiyaların ölkəmizə cəlbi istiqamətində də önəmli addımlar atılır. İnvestisiya cəlbediciliyinə görə xarici iş adamlarının maraq göstərdiyi Azərbaycanda ixracın təşviqi sistemi yaradılır, dünya bazarına çıxarılan məhsulların keyfiyyəti beynəlxalq standartlara uyğunlaşdırılır. Bu onu göstərir ki, son illər ərzində ölkə iqtisadiyyatının güclənməsinə imkan yaradan sahələrə böyük həcmli investisiyalar qoyulub, dövlət dəstəyi gücləndirilib.

“Kənd təsərrüfatı ili” olan 2015-ci ildə “ aqrar sahədə artım 6,6 faiz olmuş, məhsuldarlıq artmış, taxılçılıqda irəliləyiş olmuşdur. İri fermer təsərrüfatlarının fəaliyyətinə diqqət artırılmışdır.

Bu isə əhalinin yerli, daha keyfiyyətli ərzaq məhsulları ilə təminatına, idxaldan asılılığın azaldılmasına, kiçik və orta fermer təsərrüfatlarının formalaşmasına şərait yaradır.

Sadalanan uğurlara iqtisadi müstəqillik sayəsində nail olunmuşdur. Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur.

Onlardan 16 milyardı daxili sərmayədir. Sevindirici haldır ki, daxili sərmayələr investisiyaların həcmində üstünlük təşkil edir.

Əlbəttə ki, bu uğurun təməlində son illərdə aparılan siyasət dayanır.

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi hesabına davamlı və sabit iqtisadi inkişafa nail olunması, ÜDM-in və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, bütün bölgələrin sosial-iqtisadi vəziyyətinin müasir tələblər səviyyəsinə çatdırılması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və yerli məhsulların dünya bazarlarına ixrac imkanlarının artırılması, əhalinin etibarlı sosial müdafiəsinin təşkili və maddi-mənəvi, rifah halının durmadan yaxşılaşdırılması, orta təbəqənin hər vasitə ilə formalaşdırılması və cəmiyyət həyatında rolunun artırılması bir məqsədə yönəldilir: insan amilinə artan diqqətin əsasını təşkil edən göstəriciləri daha böyük rəqəmlərlə ifadə etmək, sosial-iqtisadi sahədə titanik inkişafı gerçəkləşdirmək. Bunun üçün potensial baza kimi neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması, modernləşdirilməsi nəzərdə tutulur, neft-kimya zavodlarından ibarət kompleksin inşası planlaşdırılır. Ən əsası isə qeyri-neft sektorunun inkişafına investisiya qoyuluşuna, sahibkarlığa əngəl olan halların aradan qaldırılmasına diqqət artırılır.

Sənaye və aqrar sahənin inkişafına yönələn islahatların tətbiqi sürətləndirilir. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın həlli qarşıdakı illərdə sənayenin inkişafına təkan verəcəkdir. Azərbaycanın ilk telekommunikasiya peykinin xidmətlərinin genişləndirilməsi, aşağı orbitli müşahidə peykinin orbitə çıxarılması, elektron xidmətlərin və internet trafikinin genişləndirilməsi, yüksək texnologiyalar parkının fəaliyyətinin təşkili istiqamətində tədbirlərin görülməsi bu sahədə yeni imkanlar yaratmışdır.

“2016-cı il çox ciddi iqtisadi islahatlar ili olmalıdır və olacaqdır” söyləməklə proqnozlar barədə inamla danışan Prezident İlham Əliyevin vurğuladığı kimi, müstəqillik, iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanın iqtisadi böhrandan ən az itki ilə çıxması üçün yerli resurslardan istifadə imkanları və daxili potensialı tükənməzdir.

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***